DOI: 10.36719/2706-6185/04/16-19

**Saleh Eldar oğlu Bağırov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
baghirovsaleh@gmail.com

# MƏDƏNİ QLOBALLAŞMA VƏ DÖVLƏTDAXİLİ MÜNAQİŞƏLİLİK

**Xülasə**

Müasir dövrdə qloballaşmanın təsirləri mədəniyyətdə də nəzərə çarpır. Bu səbəbdən bu məqalədə iqtisadi, sosial və siyasi qarşıdurmalarla yanaşı, mədəni qloballaşma nəticəsində dövlət daxilində artan millətçilik qarşıdurmaları da araşdırılmışdır. Konkret olaraq qeyd etmək vacibdir ki, *iqtisadi, sosial və siyasi* inteqrasiya münaqişələrə fərqli təsir göstərə bilər. Qloballaşan qüvvələrin yerli mədəniyyətlə kəsişməsinin mümkün nəticələri araşdırılıb. Qloballaşma ilə bağlı mədəni dəyişikliklərə reaksiya növləri və onlara yerli mədəniyyətlərin reaksiyaları təhlil edilir.

***Açar sözlər:*** *mədəni qloballaşma, daxili münaqişələr, lokal mədəniyyət, demokratiya, siyasi inteqrasiya, sosial qloballaşma*

**Saleh Eldar Baghirov**
Azerbaijan Tourism and Management University
master student
baghirovsaleh@gmail.com

## Cultural globalization and intrastate conflict

**Abstract**

Nowadays, the impacts of globalization are also noticeable in culture. For this reason, in addition to economic, social, and political confrontations, the increasing conflicts of nationalism within the state because of cultural globalization have been investigated in the present article. Specifically, it is important to note that economic, social and political integration can have different effects on conflicts. The possible consequences of the intersection of globalizing forces and local culture have been researched. The types of reactions to cultural changes associated with globalization and the responses of local cultures to them are analyzed.

***Keywords:*** *cultural globalization, internal conflicts, local culture, democracy, political integration, social globalization*

## Giriş

Nəzəri baxımdan qloballaşma və daxili qarşıdurmanın əlaqəli ola biləcəyinə dair bir neçə arqument var. Buna baxmayaraq, bu mürəkkəb bir münasibətdir. Qloballaşmanın münaqişəyə necə təsir etdiyini izah etməyə çalışmaq bir çox amil və mexanizmləri nəzərə almağı təlqin edir (Roberto, Manotas, 2015: 4). Yapon əsilli amerikalı politoloq Frensis Fukuyama mədəni qloballaşma ideyasına meydan oxuyur. Xarici iqtisadi təzyiqlərə baxmayaraq, cəmiyyətlərin fərdi kimliklərini və mədəni dəyərlərini qorumağa meylli olduqlarını, nəticədə ölkələrin iqtisadi istiqamətlərini yönləndirdiklərini iddia edir. Bu, cəmiyyətlərin qloballaşma tendensiyasından təsirlənməyəcəyi anlamına gəlmir. Bununla yanaşı, milli mədəniyyətlərdə iqtisadi və siyasi ideologiyalardan irəli gələn bircinsliyə müqavimət göstərən dərin elementlər mövcuddur. Endemik mədəniyyətlərin pozulması, dünyanın iqtisadi və informasiya texnologiyaları güclərinin həddindən artıq istehlakını və hökmranlığını təşviq edən ümumbəşəri bir mədəniyyətlə əvəzlənəcəkdir (Sedigheh, 2008: 214). Filosof Coleman James kimi digərləri isə qloballaşmadan narazı olduqlarını dilə gətirirlər. Cəmiyyətlərin tarixləri ilə yadlaşmalarını və xarici dəyərlərə heyran olmalarını qeyd edir. Bu yeni

dəyərlərin və inancların milli kimlikləriylə əlaqəsi yoxdur. Bu səbəbdən qloballaşma, ümumbəşəri vahidlik və hakim mədəniyyətin hökmranlığı naminə, beynəlxalq medianın möhtəşəm gücü ilə yerli mədəniyyətin ənənələrini və dəyərlərini zəiflədir (Sedigheh, 2008: 215). Bir çox insan üçün "xarici mədəniyyət" təhlükənin sinonimi halına gəldi. Bununla birlikdə, sosial və mədəni hərəkatlar da yerli kimliklərin və mədəniyyətlərinin məhv edilməsi əleyhinə baş qaldırmağa başladı (Vineet, 2012: 15).

Qloballaşmaya lokal reaksiya müxtəlif formalarda ola bilər: müqavimət və inkar. Ancaq bunlar mütləq deyil. Qloballaşmaya yerli mədəni cavablar da vacibdir (Berger, Samuel, 2002: 49). Amerikalı sosioloq Piter Berger mədəni qloballaşmanın dörd fərqli prosesi və fenomenini formalaşdırmışdır. Bunlar eyni vaxtda baş verir, bir-biri ilə əlaqədardır və yerli mədəniyyətlə qarşılıqlı əlaqədədirlər: a) McWorld mədəniyyəti və ya qlobal populyar mədəniyyət, b) Davos mədəniyyəti və ya beynəlxalq iş mədəniyyəti, c) Fakültə klubu beynəlxalq və ya dünya intellektual mədəniyyəti, d) Yeni dini cərəyanlar və ya populyar dini mədəniyyət. Berger qloballaşan qüvvələrin və yerli mədəniyyətin kəsişməsində dörd mümkün nəticə hazırladı: 1) Yerli mədəniyyətin qloballaşan mədəniyyətlə əvəzlənməsi, 2) Qlobal universal mədəniyyətin yerli mədəniyyətlə sintezi, 3) Qlobal və yerli mədəniyyətlərin, ikisinin əhəmiyyətli bir şəkildə birləşməsə də birlikdə yaşaması, 4) Güclü yerli reaksiya ilə qlobal mədəniyyətin rədd edilməsi (Berger, Samuel, 2002: 50).

Konkret olaraq qeyd etmək vacibdir ki, *iqtisadi, sosial və siyasi* inteqrasiya münaqişələrə fərqli təsir göstərə bilər (Roberto, Manotas, 2015: 4). Müxtəlif müəlliflər, qanunun aliliyi və siyasi sabitliyin bərqərar olması üçün iqtisadi inkişafın xüsusilə vacibliyini vurğulamışlar.

***İqtisadi ölçü***. Münaqişənin iqtisadi inkişafla əlaqəsini nəzərə alsaq, bu arqument iqtisadi qloballaşmanın dolayı yolla vətəndaş müharibəsi riskini azaltmağa kömək edə biləcəyini göstərir. Əslində milli iqtisadiyyatın dünya bazarına açılması, çoxsaylı ölkələrdə daha çox bərabərsizliyə səbəb oldu. Bəzən, iqtisadi bərabərsizlik sosial qarşıdurmanın əsası kimi qəbul edilir.Yüksək səviyyəli məkan bərabərsizliyi resursların ərazi bölgüsü ilə bağlı daxili qarşıdurmalara səbəb ola bilər, beləliklə ictimai və siyasi sabitliyi pozur. Bundan əlavə qloballaşmanın müsbət və mənfi iqtisadi tərəfləri müxtəlif etnik qruplara fərqli təsir edir. İqtisadi inteqrasiyanın dərəcəsi etnik bərabərsizliyə daha çox təsir edir, bəzi etnik qruplar daha çox qazanır, bəziləri isə az (Roberto, Manotas, 2015: 5-6). Qlobalaşmanın müsbət aspektlərindən biri isə yerli iqtisadiyyat və mədəniyyətə təzyiq göstərsə, bu prosesi imkana da çevirmək mümkündür (Sedigheh, 2008: 213). Qloballaşmanın təsirlərini proqnozlaşdırarkən, mədəniyyətlə iqtisadiyyat arasında əlaqə nəzərə alınmalıdır.Mədəniyyəti nəzərə alaraq müharibədən sonrakı Yaponiya və Almaniyanın iqtisadi uğurlarını qabaqcadan görmək olardı. Bir dövlətin iqtisadi inkşafına imkan yaradan mədəniyyətlərlə yanaşı, bəzilərini geri salan mədəniyyət də mövcuddur (Lawrence, Harrison, Huntington, 2002: 3).

***Sosial ölçü***. Qloballaşmanın sosial ölçüsü də münaqişəyə təsir göstərə bilər. Sosial qloballaşma, ölkələr arasındakı mədəni məsafənin azaldılmasına kömək edir, beləliklə ideoloji platforma və bu iddiaları dəstəkləməyə meylli beynəlxalq auditoriya təmin edir. Bu şəraitdə azlıq qrupları, hüquqlarını inkar edən repressiv rejimlərə qarşı səfərbər olmaq üçün daha çox gücə sahib olmağa can atır və bu da şiddətli silahlı qarşıdurma riskini artırır. Ancaq xatırlamaq lazımdır ki, yeni informasiya texnologiyalarının inkişafı, ərəb dünyasını sarsıdan son nümayişlər, etirazlar və vətəndaş müharibələrində müşahidə olunduğu kimi qiyamçıların səfərbərlik qabiliyyətini də artırır (Roberto, Manotas, 2015: 6-7). Sosial qloballaşma suverenlik dərəcəsini zəiflədən bir anlayış kimi qəbul edilə bilər. Sosial qloballaşma inkişaf etdikcə beynəlxalq təşkilatlar da daxil olmaqla, beynəlxalq cəmiyyət ölkələrə getdikcə daha çox müdaxilə edir. Bu müdaxilənin daxili ziddiyyət səviyyəsini azaltmaq üçün faydalı olacağı gözlənilir. Lakin beynəlxalq cəmiyyətin müsbət rolunu digər amillər kölgələyə bilər. Məsələn, hökumət əleyhinə olan qrup, İnternet vasitəsi ilə asanlıqla kütləvi qırğın silahları ala bilər və digər hökumət əleyhinə qruplarla əməkdaşlıq edərək münaqişə vəziyyətini daha da ağırlaşdıra bilər (Injae, 2012: 6).

***Siyasi ölçü***. Nəhayət, siyasi qloballaşma müxtəlif mexanizmlər vasitəsi ilə daxili qarşıdurma hadisələri ilə də əlaqələndirilə bilər. Qloballaşmanın bu ölçüsünün vacib bir tərəfi beynəlxalq iqtisadi və siyasi təşkilatların artan aktuallığı ilə bağlıdır. Bu təşkilatlara üzv olmaq üzv ölkələrin müəyyən azlıq qruplarının hüquqlarına qarşı repressiv qaydalar tətbiq edərək təhlükə altına almaq istəmirlər. Bu da öz növbəsində azsaylı qruplara çoxsaylı üstünlükləri təmin edir (Roberto, Manotas, 2015: 7). Siyasi

qarşıdurmanın mərkəzi məsələləri dəyişdi, ətraf mühit hərəkatları, qadın hərəkatı, azlıqların azadlığı və digər həyat tərzi hərəkatları artdı. Özünü ifadə etmək dəyərinin vacib cəhətlərindən biri onların gender bərabərliyinin artması ilə sıx əlaqəlidir. İnkişafın post-sənaye mərhələsində, gender bərabərliyinə yönələn tendensiya modernləşmənin əsas məsələsinə çevrildi. Müəyyən edilmiş cins rollarının bu cür dəyişməsi, özünü ifadə dəyərlərinin artması ilə əlaqələndirilir və insan müxtəlifliyinə qarşı ayrı-seçkilik əleyhinə hərəkatlərın artmasına səbəb olur (Lawrence, Harrison, Huntington, 2002: 142). Bundan əlavə, ÜTT, BVF və ya regional həmkarlar ittifaqları kimi beynəlxalq təşkilatlar tez-tez ABŞ və ya Avropa Birliyi kimi güc bloklarının strateji maraqlarını müdafiə edirlər. Buna görə də bu təşkilatlar tərəfindən qəbul edilən qərarlar, aşağı və orta gəlirli ölkələrin daxili vəziyyətinə və iqtisadi göstəricilərinə təsir göstərə biləcək asimmetrik ticarət və maliyyə münasibətlərinə söykənir. Yuxarıda göstərildiyi kimi, bütün bu amillər sosial ixtişaşlar və vətəndaş qarşıdurması potensialının izah edilməsində xüsusilə vacibdir (Roberto, Manotas, 2015: 8).

Zəngin cəmiyyətlərin yoxsul cəmiyyətlərdən daha çox demokratik olmasına baxmayaraq, təkcə sərvət avtomatik olaraq demokratiyanı gətirmir. Əksi mümkün olsaydı, Küveyt və Liviya demokratiya modelləri olardı. Ancaq modernləşmə prosesi demokratiyaya uyğun mədəni dəyişiklikləri gətirməyə meyllidir.Uzunmüddətli perspektivdə demokratikləşməyə kütləvi tələblərin artmasının qarşısını almağın yeganə yolu sənayeləşməni rədd etməkdir. Uzunmüddətli perspektivdə demokratiyaya sadəcə institusional dəyişikliklər etməklə və ya elit səviyyəli manevrlər yolu ilə nail olmaq olmaz. Demokratiyanın yaşaması da adi vətəndaşların dəyərlərindən və inanclarından asılıdır (Lawrence, Harrison, Huntington, 2002: 96). Etnik münaqişə və qloballaşma arasında daha birbaşa əlaqə vardır. Bir çox xalqlarda qlobal iqtisadi inteqrasiya iqtisadi cəhətdən üstünlük təşkil edən azlıqları zənginləşdirir, demokratikləşmə isə daha yoxsul etnik azlıqları gücləndirir (Helmut, Isar, 2007: 71).

Son onilliklərin bir çox konflikti, milli dövlət formasının tətbiq olunduğu yerlərdə (məsələn, Sovet İttifaqının varis dövlətləri), millət qurma layihəsinin yarımçıq və ya keçid mərhələsində olduğu yerlərdə meydana gəldi (məsələn, İraq) (Helmut, Isar, 2007: 73). Yeni millətçilik həm böyük (Hind millətçiliyi, İslam və ya Avropadakı immiqrasiya əleyhinə) həm də, kiçik (yəni Xorvatlar, Abxazlar, Çeçenlər) mədəni homogenliyə üstünlük verir. Bu səbəbdən qapalı və müstəsnadır. Ancaq kiçik millətçilik, həm də yerli səviyyədə demokratiyanın inkişaf etdirilməsi və mədəni müxtəlifliyin qorunması ilə əlaqəli ola bilər (Lawrence, Harrison, Huntington, 2002: 173). Paradoksal olaraq, siyasi hədəflərlə millətçilik bəzən regional sülh və firavanlığın birləşdirilən amil kimi çıxış edir. Bu zaman qlobal olmasa da, regional mədəniyyətlərin yüksəlməsinə zəmin yarada bilər. Ümumilikdə birbirinə yaxın dövlətləri, ümumi mədəni xüsusiyyətləri və ya "mədəniyyətlər ailəsi" əsasında birləşdirmək təşəbbüsü olaraq təyin olunan "Pan" millətçilik önə çıxa bilər. Bu cür millətçiliyin tarixi nümunələri arasında Pan-Türkçülük, Pan-Ərəbizm, Pan-Afrikaçılıq və daha az dərəcədə Pan-Latın Amerikası var (Roberto, Manotas, 2015: 186).

Mədəniyyətlərin necə və nə üçün dəyişdiyinə dair müxtəlif nəzəriyyələrə baxmayaraq, Pippa Norris və Roland İnglhart insanların mədəni dəyişikliklərə reaksiya göstərmələrinin dörd yolunu qeyd edir: 1) Özünə senzura: baxışların əksəriyyətə zidd olduğu zaman susmaq, 2) Uyğunlaşma: tədricən dəyişikliyi qəbul etmək, 3) Geri çəkilmək: həmfikir insanların olduğu sosial qruplar tapmaq (bu da sosial mediada asandır), 4) Avtoritar Refleks: sürətli iqtisadi, sosial və mədəni dəyişikliklərin təhdid olunduğunu hiss edən, qeyri-ənənəvi ictimai mənaları rədd edən, cəmiyyətdə, ənənəvi dəyərləri müdafiə etmək siyasi cəhətdən yanlış fikirlərini bildirməyə davam edən liderləri dəstəkləyən, həmfikir sosial mühafizəkar qruplar arasında yer tutmaq. Deyə bilərik ki, bu araşdırma qloballaşma dövründə millətçilik və mədəni dəyişiklik arasındakı potensial əlaqəni izah edir (Trail, 2020: 54).

Qloballaşma bəzi yollarla müstəmləkəçi cəmiyyətlərə müstəmləkəçiliyin məhsulu olan asimmetrik mədəni münasibətləri idarə etməyə kömək edir (Helmut, Isar, 2007: 84). Qazaxıstanın mədəniyyətin qloballaşmasına reaksiyalarının əvvəllər keçmiş müstəmləkəçi mədəniyyətinə, daha sonra digər xarici mədəniyyətlərin təcavüzünə qarşı durduğu görülür. Bununla birlikdə, qloballaşma eyni zamanda yerli mədəniyyətin əhəmiyyətini qanuniləşdirərək, qanunvericilik üçün modellər təqdim edərək və beynəlxalq normalara uyğun olduqları təqdirdə bu fəaliyyətlərin qəbul edilməsini təmin edərək, bu prosesləri asanlaşdırır (Helmut, Isar, 2007: 88). Şri Lankada isə münaqişə ölkənin qlobal iqtisadiyyata qədəm qoyduğu bir vaxtda başladı, lakin qeyri-liberal demokratiyanın

yaradılması nəticəsində gərginlik azaldı. Malayziyada qlobal iqtisadiyyata inteqrasiya böyüməyə və mədəni qarşıdurmanı azaltmağa səbəb oldu. Aydındır ki, iqtisadi liberallaşma, qeyri-liberal siyasət və mədəni münaqişə arasındakı əlaqə düzxəttli bir əlaqə deyil (Helmut, Isar, 2007: 33). Demokratik olmayan dövlətlər arasında uzunmüddətli ortaq maraqların və dinc əməkdaşlığın olmamasının əsas səbəbi onların mədəniyyətlərinin könüllü olaraq müqavilə bağlamaq anlayışına yad olmasıdır. Demokratiyanın bütün təməli liberal müqavilə sisteminə əsaslandığı halda, qeyri-demokratik quruluşlar təsadüfi güc məhsuludur və bu səbəbdən ümumi maraqlar yaratmaq iqtidarında deyillər (Mozaffari, 2003: 51).

Mədəniyyətə sahib çıxan yerli insanlar isə siyasi qarşıdurma ehtimalını artırırlar, çünki çox-mədəniyyətli cəmiyyətlərdə "kimlik siyasəti" rolunu artırırlar. Kimlik siyasətinin maraqlara əsaslanan siyasətdən daha çox qarşıdurmaya meylli olduğu deyilir. Maraqlar həssas və çoxsaylı olsa da, güzəştlər etmək mümkündür, mədəni kimlik sabitdir və müzakirə olunmur. Kimlik qrupları nə qədər çox güc qazanırlarsa, digər mədəni qruplara bu mənbələri inkar etmək qabiliyyəti də artar (Helmut, Isar, 2007: 38). Buna görə də, qloballaşma və iqtisadi azadlığın birbaşa mədəni konfliktlərdə payı olduğunu təsdiqləmək çətindir. Diaspora mədəniyyət sahibkarlarına verilən digər bir xarici dəstək mənbələridir. Belə icmalar mədəni sahibkarlara münaqişə üçün səbəblər verdikdə şiddətli etnik qarşıdurma ehtimalı artır (Helmut, Isar, 2007: 40).

## Nəticə

Bununla birlikdə, bir ölkə daxili qarşıdurmanı yaxşı idarə etmirsə, daxili qarşıdurma milli inkişaf üçün maneə yaradır. Çünki daxili qarşıdurma diqqəti milli inkişafa mane olan əsas sosial problemlərə yönəldir. Bu diqqət, müxtəlif tərəflərin sonda həmrəyliyi və harmoniyanı təşviq edən bir dialoqa girmələrini təmin edir. Bu isə müsbət sosial dəyişikliyə səbəb ola bilər (Injae, 2012: 2). Başqa sözlə, qloballaşma daxili qarşıdurma səviyyəsini azaltmaq üçün müsbət bir amildirsə, hökumət bunu nəzərə alaraq qloballaşmaya uyğun qurumlar qurmağa və tətbiq etməyə çalışmalıdır. Qloballaşma daxili münaqişə səviyyəsini azaltmaq üçün mənfi bir amildirsə, hökumət qloballaşmanın mənfi təsirlərinin qarşısını alan münaqişə idarəetmə sisteminin qurulması üçün səy göstərməlidir. Ümumilikdə milli inkişafın daxili qarşıdurma səviyyəsi ilə çox əlaqəli olduğu vəziyyətdə, qloballaşmanın daxili qarşıdurmaya təsiri barədə dövlətlər əsaslı araşdırmalar etməlidir (Ronald, 2008: 130-146).

## Ədəbiyyat

1. Roberto, E., Manotas, B. (2015). Does Globalization Promote Civil War? An Empirical Research. Departamento de Economía, Universidad Publica de Navarra, 51 p. https://core.ac.uk/download/pdf/ 78049481.pdf
2. Sedigheh, B. (2008). "Media, globalization of culture, and identity crisis in developing countries". Intercultural CommunicationStudies 17.2:212-221. https://web.uri.edu/iaics/files/18-Sedigheh-Babran.pdf
3. Vineet, K. (2012). "Globalisation and crisis of cultural identity". Journal of Research in International Business and Management 2, no. 13: 341-349. http://citeseerx.ist.psu.edu/viewdoc/download? doi=10.1.1.677.6890& rep=rep1&type=pdf
4. Berger, P., Samuel, P. (2002).Huntington.Many globalizations: Cultural diversity in the contemporary world. Oxford University Press, USA, pp.374-385. https://b-ok.asia/book/932181/ 76fd3c
5. Lawrence, D., Harrison, E., Huntington, S. (2002). "Culture matters: How values shape human progress". Basic books, p 384. https://b-ok.asia/book/2532084/a4d6cf
6. Injae, H. (2012). "The impacts of globalization on internal conflict". Korea University, p 21. http:// www.eai.or.kr/data/bbs/kor_report/epik2012_j3.pdf
7. Helmut, K., Isar, Y. (2007). "Cultures and Globalization: Conflicts and Tensions (The Cultures and Globalization Series) (v. 1)". Sage 40.
8. Trail, K. (2020). "Globalization, Immigration, and Cultural Change: Conditions that Predict Shifts in Nationalistic Attitudes." Globalization.

https://aquila.usm.edu/cgi/viewcontent.cgi?article= 2905& context=dissertations
9. Mozaffari, M. (2003). "Globalization, civilizations and world order: a world-constructivist approach." Globalization and Civilizations. Routledge, p.38-64. https://pure.au.dk/portal/files/22273378/ Globalisation_ and_civilisation.pdf
10. Ronald, F. (2008)."Changing Values among Western Publics from 1970 to 2006". West European Politics 31.1: 130-146. DOI: 10.1080/01402380701834747

**Rəyçi: s.e.ü.f.d. Cənnətxan Eyvazov**

Göndərildi: 01.06.2021 Qəbul edildi: 18.07.2021